UOT 94(479.24)

İLQAR ABDULLAYEV
Bakı şəhəri, MLK-nın tarix müəllimi, Əməkdar müəllim,
tarix üzrə fəlsəfə doktoru, BDU-nun saat hesabı müəllimi
TarixVeOnunProblemlery@gmail.com

AZƏRBAYCANDA KOMMUNİKASİYA və RABİTƏNİN İNKİŞAFI

DOI: https://doi.org/10.36719/2708-065X/103/135-140

Bu məqalədə 1969-82-ci illərdə Azərbaycan SSR-də kommunikasiya və rabitənin inkişafından danışılır. Burada 60-cı illərin əvvəllərində Azərbaycanda kommunikasiya və rabitənin xeyli zəif, aşağı səviyyədə olması, 1969-cu ildə Ulu Öndərimizin hakimiyyətə gəlişindən sonra isə bu sahənin necə yüksək sürətlə inkişaf etməsi konkret faktlarla göstərilir. Təsadüfi deyildir ki, Azərbaycanda ilk dəfə televiziya ilə rəngli yayım da bu illərdə - 1971-ci ildə baş vermişdir.

Açar sözlər: kommunikasiya, rabitə, H.Əliyev, radio, televiziya.

Giriş. Aydındır ki, hər hansı bir ölkənin sosial-iqtisadi həyatında başlıca rol oynayan infrastruktur sahələrdən biri də rabitə və komunikasiyadır. Rabitə və komunikasiya olmadan istehsal sahələri arasında zəruri olan informasiya mübadiləsi baş verə bilməz, istehsal əlaqələrinin yüksək səviyyədə olmasını təsəvvür belə etmək olmaz.

Bu baxımdan təsadüfi deyil ki, artıq 1970-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Radio Verilişləri və Televiziya Komitəsi Nazirlər Sovetinin Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə çevrildi. Bu isə artıq televiziya və radionun dövlət - siyasi statusunun artmsının yeni ifadəsi idi. Azərbaycan radiosunun proqramlarında yeni-yeni veriliş adları səslənirdi. 1978-ci ildə respublikada 1 milyona qədər radioqəbuledici cihaz və 457 min radio mərkəzi nöqtəsi var idi [1, s.55]. Artıq 1976-cı ildə respublika radiosu dörd proqramda verilişlər verilirdi. Bakıdan başqa Naxçıvan MSSR televiziya və radio verilişləri komitəsi, Dağlıq Qarabağ Muxtar Vilayəti radio verilişləri komitəsi, respublikanın 17 şəhər və rayonunda fəaliyyət göstərən redaksiyalar verilişlər hazıtlayırdılar. 1976-cı ilin məlumatlarına görə respublika radiosu ilə sutka ərzində 44,8 saat həcmində müxtəlif dillərdə verilişlər səslənirdi. Bunun 13,1 saatı birinci proqramın, 14 saatı ikinci – "Araz"proqramının, 3 saatı sterefeonik musiqi proqramının, 5,6 saatı isə xarici verilişlərin payına düşürdü [2, s.10]. Lakin bütün bunlara baxmayaraq, radiotəcrübə nəzəri fikirlərdən az faydalanırdı. Elə o səbəbdən də bütünlükdə Azərbaycan radiosu bir sıra quru, bəsit və mənasız təbliğat proqramlarından, uzun-uzadı mühazirə - çıxışlardan yaxa qurtara bilmirdi. Amma hər halda 80-cı ilərin ortalarında radionun informasiya, ədəbi-dram, musiqi, uşaq verilişləri və elmi-kütləvi proqramları dinləyicilərdə rəğbət oyadırdı [3, s.131].

Göstərilməlidir ki, qeyd olunan illərdə radiotranslyasiya nöqtələrinin sayı 160 min ədəd artmışdır. 1970-ci ilə qədər televiziya stansiyalarının sayı 13, əhalinin televiziya ilə əhatə dairəsi 1-ci proqramla 56,4% idi [4, s.9]. Televiziya sistemi daha uğurlu inkişaf etmiş və 1985-ci ildə respublika əhalisinin 97,4 %-i televiziya proqramlarını qəbul edə bilmişlər. 1987-ci ildə isə bu rəqəm 98,1 %-ə çatmışdır.

Respublika ərazisində 1970-ci ildə 1701 min rədioqəbuledici aparat olduğu halda, 1987-ci ildə bu rəqəm 3603 minə, o cümlədən kənd yerlərində 702mindən 1349 minə çatmışdı [4, s.35].

Bakı televiziya mərkəzinin verilişləri mavi ekranda ilk dəfə 1956-cı ildə işıqlanmışdır. Bir televiziya proqramını yayan bu verici ancaq Bakı və onun ətraf rayonlarını əhatə edirdi [4, s.35].

1968-ci ilə qədər televiziya proqramının yayılması, əsasən aran rayonlarında yerləşən Əli Bayramlı (Şirvan), Göyçay və Gəncə şəhərlərini əhatə edirdi. Bu müddətdə Tbilisi – Bakı radio – rele xəttinin (RRX) tikintisi başlanmışdı.

1969-1980-cı illərdə respublikada əhalinin bilik səviyyəsinin artırılmasında,dünyaförüşünün genişləndirilməsində başlıca amillərdən biri olan radio-televiziya yayımının inkişafı Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Bu barədə danışarkən ümumiyyətlə göstərmək yerinə düşərdi ki, 60-cı illərin ortalarından başlayaraq Bakı telestudiyasında artıq yeni texnologiyadan istifadə edilməyə

başlanmışdı. 1965-ci ildən etibarən istifadə edilməyə başlayan KMZİ – 4 videoyazı texnikası tamaşaları yalnız pavilyon studiyalarında yazıya almağa imkan verirdi. Bu texnika videoyazıları həyata keçirməyə imkan versə də, bunlar video montaj prosesinə imkan vermirdi. Yalnız 1971-ci ildən etibarən "KADR – 3" videosistemi çəkilmiş verilişlərin elektron montajına imkan verirdi [6, s.389]. 1970-ci ildən başlayaraq Moskva televiziyası öz verilişlərini rəngli şəkildə translyasiya etməyə başladı. Azərbaycan televiziyası öz verilişlərini yalnız 1973-cü ildən rəngli şəkildə translyasiya etməyə başladı (Hələlik yalnız Bakı şəhərində). Lakin 1972-ci ildə ilk dəfə olaraq Azərbaycan televiziyası rejissor Eldar Tağıyev tərəfindən çəkilmiş "İnsanın səsi" teletamaşasını translyasiya etmişdir [6, s.389]. Televiziya işində mühüm mərhələ olan montaj prosesinin gerçəkləşməsi, xəbərlər proqramında zəngin informasiya süjetlərnin, bütövlükdə mürəkkəb kompozisiyalı verilişlərin yaranmasına səbəb oldu. Televiziya montajı paralel olaraq yaradıcı inkişafı sürətləndirdi. Çünki montaj televiziyanın özülü olan rəngarəng təsvirlərin sadəcə ardıcıl, məntiqi, axıcı, keyfiyyətli, fasiləsiz düzümü yox, bir-birini tamamlayan fikir və ideyaların da bütövlüyü, vahidliyi demək idi [7, s.52].

Tam cəsarətlə demək olar ki, televiziyanın inkişafında rəngli təsvirin verilə bilməsi irəli atılmış əhəmiyyətli bir addım olmuşdur. 70-ci illərin əvvəllərində respublikamızda televiziya və radio verilişlərinin maddi-texniki bazasını inkişaf etdirmək üçün bir sıra tədbirlər görülmüşdür. Bakı – Şuşa – Naxçıvan – Cəlilabad – Lənkəran – Astara radio – rele xətləri işə salınmış, Rustavi – Kürdəmir – Bakı magistral rele xətti tamamilə yenidən qurulmuşdur ki, bu da Moskvadan Mərkəzi televiziyanın rəngli verilişlərini Bakıda və bir neçə başqa şəhərdə qəbul etməyə imkan vermişdir [8]. Azərbaycan televiziyasının lik rəngli təsviri Moskva proqramlarının translyasiyası olmuşdur. 1971-ci il aprel ayının 22-də Mərkəzi Televiziyanın verilişləri Azərbaycanda rəngli yayımla qəbul edildi. Az sonra respublika televiziyası da yuxarıda göstərdiyim kimi rəngli proqramlara keçdi. İlk rəngli yerli veriliş həmin il noyabrın 7-də efirə verildi. Göstərilməlidir ki, Cənubi Qafqazda lik rəngli televiziya yayımı məhz Azərbaycanda gerçəkləşmişdir [7, s.53]. Beləliklə, 1971-ci ildən etibarən Bakıda hələ kiçik də olsa, 2 saat həcmində rəngli televiziya studiyası fəaliyyətə başladı. Bu studiyanın avadanlığının bir qismi Ffransadan gətirilmişdi. Büdcədən ayrılan əlavə vəsait hesabına ilk dəfə 1973-cü ildə rəngli Səyyar Televiziya Studiyası da alındı. Bunun üçün 1 milyon manatadək vəsait xərcləndi.

1969-73-cü illərdə Şuşada və Naxçıvanda güclü televiziya mərkəzləri işə salındı. 285 km.lik Yevlax –Naxçıvan radio – rele xətti vasitəsi ilə Bakı televiziya verilişlərinin Naxçıvanda yeyılması təşkil edildi. Bakı – Zaqatala zonasında yaşayan əhalini televiziya verilişləri ilə təmin etmək üçün 135 km.lik Yevlax –Zaqatala RRX-nin tikintisinə başlanıldı. Şəki, Zaqatala və Balakən əhalisi televiziya ilə təmin edildi [4, s.35].

Lənkəran-Lerik zonasını televiziya verilişləri ilə əhatə etmək üçün 1979-cu ildə 220-km.lik Bakı – Astara RRX xətti işə salındı. Eyni zamanda Moskvada keçirilən Olimpiya oyunlarını cənub sərhəddinə ötürmək məqsədi ilə 1979-cu ildə Mahaç –Qala –Bakı RRX istifadəyə verildi. Bu RRX eyni zamanda Moskva və Rusiyanın başqa şəhərləri ilə telefon rabitəsi yaratmağa imkan verdi [4, s.36].

İmişlidə, Cəbrayılda, Lənkəranda, Lerikdə, Ordubadda, Şərurda və Astarada güclü ötürücülər işə düşdü.

Beləliklə, 1980-cı ilə qədər demək olar ki, respublika əhalisinin 95 faizi televiziya proqramları ilə əhatə olunmuşdu.

1979-cu ildə Zaqafqaziyada ilkin olaraq Bakıda Orbita peyk stansiyası tikildi. Bu unikal peyk sistemi ilk dəfə olaraq Moskva ilə Bakı arasında 24 kanal telefon peyk kanalları yaratdı.

1980-cı ildə "İntersputnik" Şurasının 8-ci sessiyasının Bakı şəhərində keçirilməsi də respublikada beynəlxalq rabitə əlaqələrinin genişləndirilməsinə parlaq nümunədir. Sessiya keçirilən vaxt Olimpiya proqramlarını peykdən qəbul edə bilən "Moskva" tipli kosmik qəbuledici nümayiş etdirildi. Sessiya qurtardıqdan sonra Heydər Əliyev cənablarının təklif və təkidi ilə bu sistem Azərbaycanda saxlandı.

1970-1980-cı illərdə televiziya proqramlarının yayılma sahələri genişləndirilməklə bərabər, proqramların sayı da get-gedə artırıldı. Belə ki, 1980-cı ildə respublika əhalisinin 96,5%-nin Az.TV proqramına, 73,2 %-nin Moskvanın 1-ci proqramına, 30,5%-nin Moskvanın 2-ci proqramına baxmaq imkanı yaranmışdı. Proqramların artması ancaq bir proqram üçün hesablanmış Bakı televiziya

qülləsinin imkanlarına uyğun gəlmirdi. Bu səbəbdən də 1975-79-cu illərdə Bakıda yeni televiziya qülləsinin layihəsi hazırlandı. Bir neçə variantda və müxtəlif yerlərdə hesablanmış layihəyə 1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən baxıldı və onun təşəbbüsü ilə seçilən yerdə (köhnə qülləyə yaxın yerdə) 310 metrlik dəmir-beton qüllənin layihəsi təsdiq edildi. 1981-ci ildə qüllənin tikintisinə başlanıldı. Sürətlə tikilən qüllə 1985-ci ildə işə salınmalı idi. 1983-cü ildə 200 metr beton və 110 metr dəmir hissənin hazır olmasına baxmayaraq, digər sahələrdə olduğu kimi Teleqüllənin tikintisində də biganəlik, süründürməçilik baş verdi və tikinti işləri zəiflədi.

Yuxarıda deyildiyi kimi, Azərbaycan teleekranında ilk dəfə rəngli şəkildə nümayiş olunan Fransız yazıçısı Jan Koktonun "İnsanın səsi" əsərinin ərsəyə gəlməsində videomühəndis R.Dərafərinin də böyük rolu olmuşdur. İlk rəngli konsert proqramı isə məşhur "Qaya" qrupunun çıxışı oldu. 1973-cü ildən etibarən Azərbaycan televiziyası rəngli yayıma keçdi. Lakin bu, hələlik yalnız Bakıda mümkün oldu. 1976-cı ilin noyabrında Azərbaycan efirində ilk rəngli informasiya təqdim edildi. Bu, telejurnalist Zeynal Məmmədlinin bayram nümayişindən hazırladığı reportaj idi [4, s.53].

İlk dövrlərdə 2 saatlıq verilişlərlə yayıma başlayan Azərbaycan televiziyası 1970-ci ildə Moskvadan qoşulan proqramlar da daxil olmaqla artıq gündə efirə 22,5 saat veriliş verirdi. Bu dövrün proqramları arasında "Odlar yurdu" televiziya jurnalı, "Azərbaycan bəstəkarlarının portretləri", "Azərbaycan Sovet İttifaqı Qəhramanları" və yenicə efirə çıxan "Əmək veteranları" silsiləsindən olan verilişlər xüsusilə diqqəti çəkirdi. "Efirdə gənclik", "Xalq nəzarəti ekranı", "Kənd həyatı", "Yelkən" verilişləri, eləcə də "Təbliğat" və yeni fəaliyyətə başlayan "Şimşək" satirik jurnalı da böyük tamaşaçı rəğbəti qazana bilmişdi. Bu dövrdə yeni bir redaksiya "Televiziya tamaşaları hazırlayan redaksiya"nın yaradılması nəticəsində artıq müntəzəm olaraq, həftədə 3 dəfə eyni vaxtda tamaşalar göstərilirdi.

Dövrün olayları təhlil edilərkən, 1970-ci ildə müttəfiq və muxtar respublikaların radio festivalında "Azərbaycan günü", Mərkəzi Televiziyanın həftəlik "Sarsılmaz ittifaq" proqramında isə "Azərbaycan televiziya günü"nün yüksək əhəmiyyətə malik olduğu da vurğulanmalıdır. Çünki bu proqramlar respublikanı tanıtmaqla yanaşı, televiziya işçilərindən yaradıcı rəqabətə uyğun təkmilləşmə tələb edirdi.

Azərbaycan televiziyasının inkişaf tarixini təhlil edərkən, onun sovet dövrü proqramlarında daha çox texniki tərəqqi və yaradıcıiq meylləri üzərində dayanmaq daha məqsədəuyğundur. Çünki o dövrdə sovet sosialist respublikası kimi mövcud olan Azərbaycan televiziyasının sosializm və kommunizmi təbliğ etməsi, verilişlərinin böyük əksəriyyətini partiya qurultaylarının qərarları üzərində qurulması təbii xarakter daşıyırdı. Bu, təbii olaraq, televiziyanın fəaliyyəti ilə yox, mövcud ictimai-siyasi rejim, bütövlükdə tarixi dövrlə əlaqədar idi. Elə bu səbəbdən də, televiziyanın ikişafını araşdırarkən, sovet dövrü Azərbaycan televiziyasının verilişlərində yuxarıda qeyd edilən məqamları qabarıq şəkildə tənqid etmək yox, zəruri tələb kimi ikinci plana çəkmək doğru olardı.

1971-ci ildə Azərbaycanda 450 mnidən çox televizor cihazı qeydə alınmışdı [7, s.55]. Həmin ilin hesablamalarına görə, son 10 ildə kənd yerlərində televizorların sayı 15 dəfə artmışdı. Bə mənada şəhərlə kənd arasındakı mühüm fərqlərin aradan qaldırılmasında televiziyanın rolu çox böyük olmuşdu.1973-cü ildə respublikada Bakı – Şuşa – Naxçıvan – Cəlilabad – Lənkəran – Astara radiorele xətləri işə salınmış, Rustavi – Kürdəmir – Bakı magistral rele xətti tamamailə yenidən qurulmuşdu. Sonuncu Mərkəzi Televiziyanın rəngli proqramlarını Bakı və bir neçə başqa şəhərdə qəbul etməyə imkan verirdi. Lakin hələ də televiziyanın maddi-texniki bazasının inkişaf cəhətdən, Azərbaycan, hətta ortaq Ümumittifaq səviyyəsindən də geri qalırdı. Respublika əhalisinin 10%-i bütövlükdə televiziya verilişlərinə, 60%-ə qədəri isə Mərkəzi Televiziyanın verilişlərinə baxa bilmirdi. Buna görə də Moskvanın əsas verilişlərini, məsələn, "Zaman" informasiya proqramını respublika proqramına qoşmaq lazım gəlirdi.

Bu dövrdə artıq Moskvada Ostankino (Ümumittifaq televiziya texniki mərkəzi) qülləsi istifadəyə verilmişdi. Sahəsi 150 min m2 olan mərkəzdə 21 studiya, 21 texniki aparat fəaliyyət göstərirdi. Dünyadakı ən iri və nadir qurğularından sayılan Ostankino qülləsinin hündürlüyü 540 m, çəkisi 55 min ton idi [7, s.56]. Burada verilən radio və televiziya verilişlərini "Molniya" süni peyki vasitəsilə SSRİ-nin uzaq şimal və şərq rayonlarına da çatdırmaq olurdu. Qüllədəki aparatların köməyi ilə dünyanın müxtəlif sahələrindən eyni vaxtda 24 proqramın qəbul edilməsi mümkün idi.

1973-cü ilin noyabrında Azərbaycan KP MK-sı Respublika Televiziya və Radiosunun verilişlərində sosalizm yarışının işıqlandırılması haqqında qərar qəbul etdi. Bu qərar sosializm yarışının işıqlandırılması ilə bağlı olsa da, televiziyanın fəaliyyətindəki bir çox ümumi nöqsanları təhlil edərək, ekranın bədii və texniki səviyyəsinin yüksəldilməi üçün də mühüm əhəmiyyət kəsb edirdi. Eləcə də qoyulan tələblərin, verilən tapşırıqların böyük əksəriyyəti radio və televiziyanın hərtərəfli inkişafına şərait yaratmaq məqsədi daşıyırdı. Qeyd edilməlidir ki, bu qərarın televiziya proqramlarının daha da rəngarəng, kamil, mükəmməl olmasında böyük rolu olmuşdur.

1960-cı illərin göstəricilərinə görə Azərbaycanda rabitənin vəziyyəti qənaətbəxş deyildi. Təkcə onu xatırlamaq kifayətdir ki, 1956-1970-ci illərdə respublikada rabitə sahəsinə kapital qoyuluşunun ümumi həcmi 69,24 mln. rubl təşkil etmişdir. 1969-cu ildə respublikada o dövrün yeni texnologiyası olan koordinat sistemli ATS–lər telefon şəbəkələrinin cəmi 0,9 %-ni təşkil edirdi [4, s.9]. Əgər 1966-70-ci illərdə rabitə üzrə gəlir 175 mln. rubl idisə 1971-1975 ci illərdə bu rəqəm 269 mln. rubl olmuşdur. Respublikada, o cümlədən Bakı şəhərində rabitə sahəsində çoxlu problemlər mövcud idi və bu problemlər həll olunmur, əksinə getdikcə artır, rabitə dövrün tələblərinə cavab vermirdi. Yaşayış binaları telefonlaşdırılmadan istifadəyə verilirdi. Bakı şəhər sakinlərinin hər 100nəfərinə orta hesabla 6 telefon düşürdü ki, bu da keçmiş Sovetlər İttifaqında ən aşağı göstərici idi.

Əsas iqtisadi göstərici sayılan tarif gəliri 41 mln. rubl, mənfəət 12 mln. rubl, əsas fondların dəyəri 60 mln. rubl idi. Rentabellik səviyyəsi 16,1 % olmuşdu. Rabitədə inkişafın zəif olması rabitəçilərin rifah halına mənfi təsir göstərirdi. Onların sosial vəziyyəti ağır - əmək hüququ az, mənzil problemi böyük idi.

Respublikada 70-80-cı illərdə bu sahənin də inkişafına xüsusi diqqət yetirilmişdir. Rabitə - telefonlaşdırma sistemi sahəsində çox ciddi tədbirlər görülmüşdür. Bu illərdə xalq təsərrüfatına və əhaliyə rabitə xidməti xeyli yüksəlmişdir. Görülən tədbirlər nəticəsində rabitə xidməti xeyli yaxşılaşmış və respublikanın şəhərlərində, rayon mərkəzlərində və kənd yerlərində telefon stansiyalarının tutumu 553 min nömrəyə çatmışdır.

Əgər 1970-ci ildə respublikada poçt, teleqraf və telefon müəssisələrinin sayı 1555 idisə, bu rəqəm 1987-ci ildə 1901olmuşdur. O cümlədən, kənd yerlərində bu rəqəm 1171 və 1429 olmuşdur. Burada qeyd etmək istirdim ki, 1987-ci il bilavasitə dissertasiyanın tədqiq edildiyi dövrdən bir qədər kənara çıxsa da hadisələrin inkişaf dinamikasına uyğun gəldiyinə görə bu rəqəmin də göstərilməsi məqsədəuyğun sayılmışdır.

Təkcə 1971-1975 –ci illərdə şəhər və rayon mərkəzlərində, kənd yerlərində 51000 nömrəlik avtomat telefon stansiyaları işə salınmışdır.

Rabitə xidməti hesabına dövlət büdcəsinə gələn gəlir də xeyli artmışdır. Bu da əsasən rabitə xidmətinin keyfiyyətinin getdikcə yüksəlməsi ilə bağlı idi. Rabitənin bütün növlərinin daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir. Rabitə növləri ilə xidmətlərin həcminin artırılması daim diqqət mərkəzində olmuşdur. Təkcə 1981-1985-ci illərdə əhaliyə rabitə növləri ilə xidmətlərin həcminin 1,3 dəfə artırılması, ümimu uzunluğu 600 km. olan yeni şəhərlərarası kabel xətlərinin çəkilməsi planlaşdırılmışdı. Həmçinin bu illərdə şəhərlərarası telefon kanallarının təqribən 1,7 dəfə, şəhərlərdə və kənd yerlərində telefonların sayının 1,3 dəfə artırılması nəzərdə tutulmuşdu.

Rabitə xidmətlərindən gələn gəlir 1970-ci ildə 41,3 mln. manat olmuşdusa, bu rəqəm 1985-ci ildə 119,3 mln. manata çatmışdı. Təkcə 1970-ci ildə rabitə xidməti vasitəsilə 120 mln. məktub, 547 mln. qəzet və jurnal, 1,2 mln. bağlama müxtəlif ünvanlara göndərilmişdir [4, s.130]. Rabitə xidmətinin bu növünə diqqətin artırılması daha böyük uğurlara gətirib çıxarmışdır.

70-80-cı illərdə telefonlaşdırma işində də xeyli işlər görülmüşdür.

1970-ci ildə respublikada ümumi telefon xəttində birləşən telefon aparatlarının sayı 185,1 min ədəd olduğu halda, bu rəqəm 1982-ci ildə 582,9 min ədədə çatmışdı.

Qeyd edilən dövrdə şəhərlərarası telefon stansiyalarının sayı da artaraq 27-dən 670-ə çatmışdır. Rabitə sisteminin mühüm sahələrindən biri olan radioqəbuledici xidməti olmuşdur. Bu sahə respublikada daha geniş əhatə dairəsinə malikdir və həm respublikadaxili, həm də respublikadan kənarda baş verən müxtəlif səpkili hadisələr haqqında əhalinin məlumatlandırılmasında mühüm rol oynamaqdadır.

Göstərilməlidir ki, respublikanın sosial-iqtisadi həytında başlıca rol oynayan infrastruktur sahələrindən biri kimi rabitə xidməti və onun müxtəlif sahələrinin inkişafına sonrakı illərdə də mühüm əhəmiyyət verilib.

Bütün göstərilənlərlə yanaşı bu sahədə çətinliklər və nöqsanların olması da ayrıca olaraq qeyd edilməlidir.

Telekommunikasiya və rabitəyə çox böyük önəm verən Ulu Öndərimiz bu barədə deyirdi: "Telekomunikasiya, rabitə, əlaqə böyük əhəmiyyətə malik olan bir sektordur. Bu sektorda bizim nailiyyətlərimiz Azərbaycanın iqtisadi əlaqələrini, insani əlaqələrini, bütün dünya ölkələri ilə əlaqələrini və bütün Azərbaycan Respublikasının həyata keçirəcəyi siyasəti dünya miqyasında bildirməsi üçün çox əhəmiyyətlidir" [9]. H.Əliyev cənabları haqlı olaraq bildiriridi ki, müasir informasiya – kommunikasiya texnologiyaları sisteminə malik olmayan hər hansı bir dövlətin iqtisadi imkanlarından söhbət belə gedə bilməz. Ulu öndərimiz hakimiyyətə gəldiyi elə ilk vaxtlarda, 1970-ci il iyun ayının 24-də Azərbaycan KP MK-nın bürosunda "Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında" məsələni müzakirəyə çıxardı və buradaca bu vacib məsələ haqqında xüsusi qərar qəbul etdi. Bundan sonra respublikanın hər yerində, o cümlədən paytaxt Bakı şəhərində rabitə qurğularının və avtomat telefon stansiyalarının tikintisi üçün əlverişli şərait yarandı. Xüsusi olaraq göstərilməlidir ki, görülmüş tədbirlər nəticəsində cəmi bir il ərzində Bakının telefon rabitə sisteminin orta tutumlu şəbəkə səviyyəsinə yüksəltmək üçün altı rəqəmli nömrələnmə sistemi tədbiq edilərək, şəbəkədə yeni-yeni telefon stansiyalarının tikintisinə imkan yarandı. Bakıda telefon şəbəkəsinin problemlərinin həllini ən vacib məsələlərdən sayan Ulu Öndərimizin bilavasitə təşəbbüsü ilə MK və Nazirlər Soveti 1974-cü il avqustun 30-da "Bakı şəhərində telefon rabitəsinin vəziyyəti və onu sürətlə inkişaf etdirmək tədbirləri haqqında" yeni bir qərar qəbul etdi. Bu qərara əsasən Bakıda ümumi tutumu yüz altımış dörd min dörd yüz nömrəyə çatan və o dövr üçün üasir olan müxtəlif avtomat telefon stansiyalarının tikilməsi demək idi. Aydındır ki, bu qərarın qəbulu ilə rabitə sahəsində bütün problemlərin həllini gözləmək sadəlövhlük olardı. İndi bütün tikiləcək ATS binaları üçün torpaq sahəsi ayrılmalı, binalar və ATS-lər layihələşdirməli, həmin layihələr SSRİ Plan Komitəsində təsdiq olunmalı, Moskvadan telefon stansiyaları üçün avadanlıqlar alınmalı idi. Aydındır ki, respublikamızda, eləcə də Bakı şəhərində bütün bu nəhəng işlərin görülməsin məhz Heydər Əliyevin SSRİ mərkəzi dairələrində böyük nüfuzu sayəsində mümkün olurdu [9].

Nəticə. Haqqında söz gedən dövrə aid müvafiq sənədlərin tədqiqi göstərir ki, uzun müddət – eləcə də həm istehsal və həm də sosial infrastrukturunun maddi-texniki bazası zəif olmuşdur. SSRİ dövründə bu sahənin inkişaf etdirilməsinə əsaslı vəsait qoyuluşu olduqca az olmuşdur. Bu sahədə də müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da hüquqları pozulurdu. Yalnız Ulu Öndərimiz Heydər Əliyevin mərkəzdə olan şəxsi nüfuzu, təsiri nəticəsində respublikamız yuxarıda göstərilən faktlardan göründüyü kimi rabitənin inkişafında xeyli uğurlara nail olmuşdur.

ƏDƏBİYYAT

1. Əlizadə Y.M., Məhərrəmli Q.M. Azərbaycan efiri: tarix və müasirlik. Bakı. "Nurlan", 2006, 184 s.
2. 50 il efirdə. Bakı, 1976, 28 s.
3. Məhərrəmov Q.M. Radio dalğalarında. Bakı, "Azərnəşr", 1999, 304 s.
4. Heydər Əliyev və Azərbaycan rabitəsi. Az. Respublikası Rabitə Nazirliyi. Bakı, 2002.
5. Zeynalov İ. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı, Azərnəşr, 2004, 326 s.
6. Г.Аскерзаде, А.Таваккюльоглы. История Азербайджанской журналистики. Баку, «ABC poliqraf", 2015, 455 с.
7. Aslanova B.A. Azərbaycanda televiziya yayımının inkişaf mərhələləri. Bakı, Mütərcim, 2017, 156 s.
8. "Kommunist", 7 may, 1974-cü il.
9. Beytulla Hüseynov. Heydər Əliyevin Bakı telefon rabitə sistrminin inkişafında müstəsna xidmətləri var / Xalq qəzeti, 1 may, 2013. - https://old.xalqqazeti.com/az/news/social/33551 [30.10.2023].

ИЛЬГАР АБДУЛЛАЕВ
Д.ф.и.н.,
Бакинский Государственный Университет

РАЗВИТИЕ СВЯЗИ В АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1969-1982 ГОДАХ

В данной статье говориться о развитии связи в Азербайджанской ССР в 1969-1982 годах. Здесь на конкретных фактах показано, что в начале 60-х годов связь и коммуникации в Азербайджане находились на очень слабом и низком уровне, и как эти сферы развивались с большой скоростью после прихода к власти в 1969 году нашего Великого Вождя. Впервые в Азербайджане цветное вещание по телевидению состоялось в эти годы – в 1971 году.

Ключевые слова: коммуникация, связь, Г.Алиев, радио, телевидение.

ILGAR ABDULLAYEV
PhD, Baku State University

THE DEVELOPMENT OF COMMUNICATION AND CONNECTION IN 1969-1982S YEARS IN AZERBAIJAN

This article deals with the development of communication and connection in 1969-1982s years in Azerbaijan. In this article has been stated that the level of communication and connection was too low but after great nationwide leader Heydar Aliyev"s coming to pover in 1969 the rapid development of these fields has been shown with concrete facts. For the first time coloured telecast happened in those years – in 1971 in Azerbaijan too.

Keywords: communication, connection, H.Aliyev, radio, television.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 oktyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.